*1920-ci il Sovet hakimiyyəti qurulduqdan sonra elmin, mədəniyyətin, ictimai-siyasi həyatın inkişafında yeni keyfiyyət dəyişmələri meydana gəldi. Xüsusən yenidənqurma prosesi xalqımızın mənəvi intibahına yeni təkan verdi. Teatr və dramaturgiyanın yaradıcılıq problemləri dəyişdi. Sosial təbiəti qüvvətləndi. Tənqidi fikrin elmi-nəzəri xarakteri, əməli fəaliyyət dairəsi genişləndi. Teatr və onun tənqidi ictimai idealın daha fəal ifadəsi və təsdiqi üsuluna çevrildi.*

*Hələ 1950–70-ci illərdə Azərbaycan teatr tənqidinin professionallıq baxımından formalaşmasına Mehdi Hüseyn, Məmməd Arif, Cəfər Cəfərov, Mehdi Məmmədov, Elçin Əfəndiyev, Bəkir Nəbiyev, Yaşar Qarayev, Timurçin Əfəndiyev, İnqilab Kərimov, İlham Rəhimli kimi yazıçı və alimlər böyük təsir göstərmişdir. Gənc nəsil teatrın taleyi ilə maraqlanmalı, həm müasir, həm də klassik Azərbaycan, rus və dünya teatr tənqidinin zəngin ənənələrinə yiyələnməli, ədəbi-bədii tənqid haqqındakı sənədlərin yaradıcılıq tələblərini dərindən dərk etməli, müasir teatr təfəkkürünün mahiyyətinə nüfuz etməlidirlər. Bu baxımdan tanınmış yazıçı və tənqidçi Elçinin ədəbi tənqidin inkişaf problemlərindən bəhs edən son əsərləri, Yaşar Qarayevin "Səhnəmiz və müasirlərimiz", "Tənqid, problemlər, portretlər", Mahmud Allahverdiyevin "Teatr tənqidi və müasirlik" kitabları teatrşünaslıq üçün faydalı vasitələrdir.*

*Müasir professional dramaturgiyanın və teatr tənqidinin inkişafına fəal təsir göstərən A.Əliyevanın, Məryəm Əlizadənin, T.Yusifbəylinin xidmətlərini xüsusilə qeyd etməliyik. Bunlardan başqa sənətşünaslıq doktoru, professor İlham Rəhimli də müasir teatr tənqidinin və dramaturgiyanın problemlərini öz yazılarında geniş əhatə edir. Teatr tənqidçisinin müasirlik və sənətkarlıq duyumuna müəyyən yer verilir. Bədii bütövlüyün və bəsitliyin mahiyyətinin dərindən dərk edilməsinə tədris proqramlarının tələblərinə xüsusi diqqət yetirilir. Teatr tənqidi bədii prosesla yanaşı addımlayan, ona istiqamət verən bir yaradıcılıq növüdür. Bu tənqid növü öz predmetinin mahiyyətinə uyğun təhlil, tədqiq və yozum tələb edir.*

## MÜASİR

Müasir teatr tənqidinin elmi-nəzəri səviyyəsinin istənilən zirvədə olmaması, obyektiv tənqidə etinasızlıq göstərilməsi heç də həmişə ona yüksək bədii estetik və professionallıq meyarlarından yanaşmaması, tənqidçinin "vicdan ilə vəzifəsi" arasındakı vəhdətin pozulması teatr tənqidinin bədii prosesdən, dərin təhlildən uzaqlaşmasına, müasir teatrın və onun tənqidinin yüksək elmi-nəzəri tələblərindən ayrılmasına gətirib çıxarır.

Teatr tənqidinin tələblərini dərindən duymadan, istedadın bütün imkanlarını aşkara çıxarmadan, bədii estetik idealın obrazlı ifadəsini əldə etmədən zamanı qabaqlamaq mümkün deyil. Teatr tənqidi bütövlükdən ayrılan, obrazlı təfəkkürün tələblərini doğrultmayan, insan zövqünü təmin etməyən duyğularımızı düzgün səmtə yönəltməyən yaradıcılıq münasibətlərinə qarşı həmişə olmalıdır. O özünün fəal həyat mövqeyindən ayrılarkən tamaşaçı və oxucularını itirər. Buna görə də, teatrşünas özünün formalaşma dövründən dərk etməlidir ki, tənqid özünün bütün fəaliyyət prosesində müasirlikdən, sənətkarlıqdan uzaq olan təsəvvürləri üsyankarlıq duyğusu ilə dağıtmalı, obrazlı münasibətlə təsdiq və tərənnüm etməlidir. Onun mübarizliyi və obyektivliyi də yalnız belə bir qaynar prosesdə özünün yenilməz xarakterini müəyyənləşdirir. Hər zaman teatr tənqidi tamaşaçı və oxucular arasında yeni, bədii duyum yarada bilər. Başqa sözlə teatr tənqidi bir sənətkarın nüfuzu və şöhrəti qarşısında sənətin böyük yaradıcılıq tələblərinə göz yumub bədiilikdən və həyat həqiqətindən, müasirlik duyumundan ayrılmağı, saxtalığa yaxşı deməyi qətiyyən rəva bilməməlidir.

Müasir aktyorun yaradıcılıq psixologiyasının təhlil və tədqiq olunması teatr tənqidini düşündürən aktual əhəmiyyətli bir məsələdir. Teatr tənqidçisi aktyorun obrazlı düşüncəsini, onun istedadının səviyyə və xarakterini obrazın yaranmasında iştirak edən ürəyin təxəyyül və təsəvvürün duyğu və düşüncəsinin fəaliyyətini müəyyənləşdirməli, onu elmi əsaslarla izah etməyi bacarmalıdır.

Teatr tənqidi bədii proseslə yanaşı addımlayan teatrda müasirlik və sənətkarlıq mövqeyini müdafiə edən və onun inkişafına xidmət göstərən bir elmdir. Teatr tənqidi özünün professionallıq mahiyyətinə, məzmununa uyğun təhlil, tənqid və yozum tələb



## TEATRŞÜNASLIĞIN PROBLEMLƏRİ

edir.

Zaman dəyişdikcə insanın düşüncələri, zövqü və mühakimə qüdrəti, bədii estetik münasibətləri də dəyişir, yeniləşir. Zaman özü ilə birlikdə yeni təfəkkür, yeniliyə yeni baxış və keyfiyyət dəyişmələri gətirir. Eyni zamanda xalqın bədii estetik zövqünə zidd olan bizim cəmiyyətimizin sənət tələbləri ilə uyuşmayan "saxta yaradıcılıq" nəzəriyyələrinə barışmaz münasibət bəsləmiş və onun hər cür təzahürlərinə qarşı ardıcıl mübarizə aparmaq zərurətini göstərmiş yaradıcı təxəyyülü qarşılıqlı rabitədə götürmüşdür. Belə bir şəraitdə Azərbaycan teatrı öz professionallıq, dövrün qabaqcıl ictimai fikirləri səviyyəsinə yüksəlməyə çalışırdı. Görkəmli Azərbaycan aktyorlarından Hüseyn Ərəblinskinin, Abbas Mirzə Şərifzadənin, Ülvi Rəcəbin, İsmayıl Hidayətzadənin, Ələsgər Ələkbərovun, Sidqi Ruhullanın, Kazım Ziyanın, Mərziyə Davudovanın, Hökumə Qurbanovanın, gülüş ustaları Cahangir Zeynalovun, Mirzə Ağa Əliyevin fəaliyyətləri bu dediklərimizə parlaq misal ola bilər. Yaxud da müasir aktyor sənətinin ən gözəl nümunələrini yaradan M.Tsaryov, M.Ulyanov, Y.Lebedev və bu kimi neçə-neçə rus səhnə ustalarının adını qeyd edə bilərik.

Ümumiyyətlə teatr haqqında fikir formalaşdıqda, üzərinə yeni vəzifələr düşdükcə ona qarşı ictimai münasibət də fəlsəfi platformanın mövqeyi də bütünlüklə dəyişir. Görkəmli dramaturq M.F.Axundovun komediyalarında da tənqid məhz bu böyük ideala xidmət edir. Onun müasirlik mövqeyi, estetik idealı bu baxımdan qüvvətli idi. Yaxşı bilirik ki, teatr mübarizə vasitəsidir. Satirik və istehzalı gülüşlə tamaşaçıların idrakına təsir etmək, onu süstlükdən, əli-qolu bağlılıqdan, fəaliyyətsizlik torundan xilas etmək olar. Mirzə Fətəli Axundov da teatra, onun tənqidinə xüsusi əhəmiyyət verirdi. Komediyanın insanda oyatdığı təsir xoş olan və xoş olmayan duyğuların cəmindən yaranır, həm də burada adətən xoş duyğu üstün gəlir.

Azərbaycan dramaturgiyasının banisi Mirzə Fətəli Axundovun müəllifi olduğu bir neçə məqalələrdə görürük ki, daim ictimai inkişafa, mənəvi tərəqqiyə nail olmaq üçün tənqiddən və komediya janrından istifadə etməyə üstünlük verirdi. Mirzə Fətəli Axundova görə tənqid bu günkü və gələcək nəsillərin mənəvi inkişafına faydalı təsir göstərə bilər. Obyektiv və prinsipial tənqidə əsaslanan bir xalq həmişə irəliləyişdə olar.

Teatr tənqidi zamanın özü ilə gətirdiyi yeniliyi, onun hərarətli nəfəsini duymalı, yüksəliş qarşısında bir əngəl olan eybəcərliyə qarşı barışmaz münasibət bəsləməlidir. Zaman irəlilədikcə tənqid də daima irəliləyişə doğru hərəkətdə olmalı, yeniliyin bir qolundan yeni bir qoluna doğru irəliləməlidir. Beləliklə, zaman ötüşdükcə hər bir teatr tənqidçisinin bilik səviyyəsi, məzmunu və məntiqi də dəyişər, yeni-yeni nailiyyətlər əldə edilər. Bunun üçün hər bir teatr tənqidçisi üzərinə düşən vəzifəni ləyaqətlə, yüksək professional tələblə yerinə yetirməlidir. Müasir teatr tənqidçisi teatrın, aktyor və rejissor işinin dramaturgiyanın antihumanist yozumunu, cəmiyyətdə baş verən yeniliyə etinasızlıq hallarını qətiyyətlə pisləməlidir: sənətkar forma və məzmunu onun ideya, müasirlik və sənətkarlığın harmonik ifadəsini əldə etməyə çağırmalıdır. Bu zaman teatrda bədii ümumiləşdirmənin obrazlı ifadəsi, cəmiyyətin həyat tərzi, məişəti bədii bir pafosla öz təcəssümünü tapır.

Tənqid yaşadığı cəmiyyətin bədii estetik tələblərinə, tamaşaçıların artmaqda olan zövqünə, arzu və istəklərinə münasibətsiz qala bilməz. Qələmə alınan hər bir problemi cəmiyyətin estetik görüşləri baxımından etməli, sənətkarın yaradıcılıq prosesini bütün ziddiyyətləri ilə birlikdə nəzərdən keçirməlidir.

Teatr tənqidçisi həqiqəti o zaman ifadə edə bilər ki, onun təfəkkür, düşüncə tərzi obyektiv həqiqət əsasında formalaşmış olsun. Teatr tənqidi bu zaman gerçəkliyin bədii ifadəsini bütünlüklə əhatə edir. Bu o deməkdir ki, tənqidçinin yeni təfəkkürü və dünya duyumu düzgün formalaşmalıdır. Bu yolla tənqid müasirlərimizin mənəvi həyatını tərənnüm edən yüksək ideya-bədii məzmunlu pyeslər yaradılmasına, bədii bütövlüyü ilə fərqlənən aktyor və rejissor işinin meydana gəlməsinə, teatrın bədiilik tələbləri səviyyəsinə yüksəlməsinə nail ola bilər. Tənqidçi çalışmalıdır ki, əqidə ilə əməl inamla müasirlik duyğusu arasında vəhdət yarada bilsin. Tənqid də, teatrda yenidənqurma və yüksəliş prosesinə qarşı duranların münasibətlərinə tənqidin müasirlik tələbləri baxımından yanaşmalıdır. Yalnız bu zaman teatr tənqidi mənəvi inkişaf prosesinə təkan verər, onun yüksəlişini düzgün qiymətləndirər.

Teatr tənqidi sənətin inkişaf qanunauyğunluğunu

əhatə etməklə bərabər onun daxili quruluşunu, bədii-obrazlı ümumiləşdirmənin yollarını göstərməlidir. Səhnədəki tamaşanın yaranmasında iştirak edən sənətlərin sintezinin bədii, obrazlı xarakteri də məhz bu yolla yaranır. Hər bir kiçik boya ümumi mənaya kömək edir, sənətin böyük təlqin və təşviq mahiyyəti də bu məna və məzmun vasitəsilə yaranır.

Teatr tənqidçisi hansı tamaşa olursa-olsun, əgər onu nəzərdən keçirirsə, səhnədə baş verən hadisələri cüzi bir olaydan tutmuş hər bir hadisəni dəqiqliklə açıqlamalıdır. Belə ki, istər rejissor işini, istərsə də aktyor fəaliyyətini mənfi və ya müsbət cəhətdən tənqid və təbliğ etməlidir. Heç bir hadisəyə etinasız yanaşmamalıdır.

Əsrlər boyu insanları bədii bütövlüyü ilə heyrətə salan sənət əsərləri həyat hadisələrini dinamik hərəkət prosesində göstərmişdir. Müəyyən məna və məzmunu əhatə edən hərəkət bəsitliyə, mücərrədliyə qarşı durur. Burada hərəkət prosesi ziddiyyətlərin ifadəsini, həddini əhatə edir. Teatr tənqidi isə sənəti süstlükdən, bəsitlikdən xilas etmək uğrunda obyektivliklə mübarizə aparır. Bu zaman teatr cəmiyyətin ictimai idealını tərənnüm edir. Sənətin bədii estetik və tərbiyəvi təsirini yüksəldir. Tamaşaçıları eybəcərliyi inkar etməyə çağırır, onları mənən zənginləşmək uğrunda mübarizəyə qaldırır, qurub yaratmağa ruhlandırır. Dramaturgiya və teatrın bədii sənətkarlıq xüsusiyyətləri ilə bərabər onun ideya, fəlsəfi məndəricəsi mühüm bir problem kimi teatr tənqidini düşündürməli, sənətin novatorluq, müasirlik mövqeyini yüksəltmək kimi çox vacib bir məqsədi izləməlidir.

Zaman dəyişdikcə fikrin, mübarizənin, dinamika və dramatizmin yeni ifadə tərzi meydana gəlir. Bu da kolliziya və dramatizmin yeni mərhələsini ifadə edir. Bu zaman hadisə və hərəkət ağıl, məntiq, dramatizm və dinamika ilə birləşir.

Görkəmli dramaturqlardan M.F.Axundovun komediyalarında mühit və cəmiyyət obrazlara çevrilir. İnsan xarakteri və münasibətləri zamanın ziddiyyətləri ilə əlaqəli şəkildə şərh edilir. Onun gülüşü oynaq təbiətə, kədərli düşüncəyə malikdir. Dramaturq güldürür, kədərləndirir, düşündürür. M.F.Axundov feodal cəmiyyətində xalqı narahat edən həyat hadisələrinin dinamik düzümünü vermiş, ictimai mənafe ilə zorakı həyat məntiqini qarşılaşdırmışdır. Bu ifadə tərzi dramda hərəkət prosesinə qarşı marağı artırır, nadanlığı, xəsisliyi, qorxaqlığı və mənəvi çürüklüyü nifrət hədəfinə çevirir. Bu ənənə xalq komediyalarının poetikası, yeni yüksəliş mərhələsi və ən gözəl cəhətlərindən biri kimi diqqəti cəlb edir. Çürük mənəvi keyfiyyətləri təcəssüm etdirir, xalq həyatının canlı mənzərəsini göstərir. Tamaşaçılar qarşısında güzgüyə çevrilir. Onlar öz-özünü görür və öz ağalarının rəzalətlərinə, feodal mühitin zorakılığına qarşı qəzəblənir, nifrət edir və mənəvi təkamül yoluna düşür.

Bir vaxtlar rus dramaturqu Anton Pavloviç Çexovun dramaturgiyasına qarşı da belə bir münasibət yaranmışdı. Sözün əsl mənasında o, bir filosof dramaturq olmuşdur. A.P.Çexov ictimai və mənəvi böhranı öz müasirlərinin həyata münasibətlərində və baxışlarındakı ziddiyyətin gərgin mübarizəsini, daxili çarpışmanı, psixoloji konflikti ifadə etmiş dünya dramaturgiyasında yeni bir üslub yaratmışdır.

Tədqiqatçı tənqidçilərimizin inkişaf mərhələləri müxtəlif zamanlarda yaşamış sənətkarların yaradıcılığında müşahidə etdiyimiz ümumi cəhətlər haqqında maraqlı müqayisələri araşdırarkən qeyd etmək lazımdır ki, bu gün də çox sevilən teatr tənqidçilərimiz var və güclü tənqidi mövzular yazmağa layiqdirlər.

**Nəsib Səfərov,**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti teatrşünaslıq kafedrasının tədris ustası**

## Ədəbiyyat

1. Aydın Dadaşov "Müstəqillik dövrünün dramaturgiyası".
2. İlham Rəhimli "Azərbaycan teatr tarixi".
3. İnqilab Kərimov "Azərbaycan teatrı 125".
4. Nərminə Ağayeva "Teatr tənqidi tarixi və nəzəriyyəsi".
5. Timurçin Əfəndiyev "Azərbaycan dramaturgiyasında metodlar"